*N.Səmədova. Məmməd Səid Ordubadinin İran tarixi haqqında məqalələri // Əlyazmalar yanmır, 2019, №2 (9), s.135-138.*

UOT: 94(55); 82

**Nailə Səmədova**
*Filologiya üzrə elmlər doktoru, baş elmi işçi,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26*
*e-mail: nailesamadova@yahoo.com*

# MƏMMƏD SƏİD ORDUBADİNİN İRAN TARİXİ HAQQINDA MƏQALƏLƏRİ

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda görkəmli ədib Məmməd Səid Ordubadinin zəngin şəxsi arxivi mühafizə olunur. Arxivdə yazıçının İran tarixinə aid silsilə məqalələri saxlanılır. Bu məqalələrin hər biri Azərbaycan dilində ərəb əlifbası ilə yazılmış avtoqraf nüsxələrdir.*

***Açar sözlər:*** *Ordubadi, İran, Pəhləvi, tarix, inqilab*

## Giriş

*XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda zəngin şəxsi arxivi mühafizə olunur. Arxivin müəyyən hissəsini ədibin İran tarixinə aid məqalələri təşkil edir. "İran tarixinə aid oçerklər", "İran Pəhləvi dövründə", "İran mədəniyyəti", "İranın qədim və təzə tarixindən", "İranda inqilab", "Bugünkü İran", "İran tarixi və fars dili haqqında", "İngiltərə imperializmi Şərq xalqlarının düşməni rolunda" adlı bu məqalələr ərəb əlifbası ilə yazılmış avtoqraf nüsxələrdir. Məqalələrdə İranın qədim dövrlərdən başlayaraq XX yüzilin əvvəllərinə qədərki tarixindən – siyasi və iqtisadi vəziyyətindən, hökumət quruluşundan, mədəniyyətindən bəhs edilir. Fikrimizcə, Məmməd Səid Ordubadinin İran tarixinə aid məqalələrindən tarixçi alimlər məxəz kimi yararlana bilərlər.*

Bunların arasında "İran tarixinə aid oçerklər" (1) həcmcə daha genişdir. 87 vərəqdən ibarət olan əsərin bəzi vərəqlərinin kənar hissələri zədələnmişdir. Müəllif əsəri adlandırmadığı üçün başlıq şərti verilmişdir.

"İran tarixinə aid oçerklər" 8 bölmədən ibarətdir: 1. İran tarixindən bir parça, 2. İranda səlcuqilər, 3. İranda ərəblərə qarşı mübarizə, 4. İranda kəndli, 5. İranda ümumi yaşayış, 6. İranda inqilab hərəkatının birinci dövrü, 7. İranda inqilab hərəkatının ikinci dövrü, 8. Pza şah Pəhləvi dövründə İran.

Əsərin 1-ci, 3-cü, 4-cü və 8-ci bölmələri iki variantdadır. Bu variantlarda məzmun müəyyən qədər eyni olsa da, aralarında nüsxə fərqləri vardır.

Onu da qeyd etmək lazımdır ki, əsərin mündəricatında 3-cü bölmə "İranda ərəblərə qarşı mübarizə" adlanırsa, əsər daxilində "İranda din və istiqlal mübarizəsi" kimi; 5-ci bölmə mündəricatda "İranda ümumi yaşayış", əsərdə "Ümumi yaşayış"; 6-cı bölmə mündəricatda

"İranda inqilab hərəkatının birinci dövrü", əsərdə "İranda inqilab hərəkatı"; 7-ci bölmə mündəricatda "İranda inqilab hərəkatının ikinci dövrü", əsərdə "İnqilab hərəkatının ikinci dövrü – Səttar xan"; 8-ci bölmə mündəricatda "Rza şah Pəhləvi dövründə İran", əsərdə I variantda "Pəhləvi dövründə İran", II variantda "Pəhləvi xanədanı dövründə İran" kimi gedir. Variantlar arasında kifayət qədər fərq vardır. Onu da qeyd etmək lazımdır ki, Ordubadi "İran Pəhləvi dövründə" (2) adlı 3 vərəqdən ibarət ayrıca məqalə də qələmə almışdır. Üzərində düzəlişlər edilsə də nisbətən səliqəli xətlə yazılmışdır. Bu nümunələrdə İranın Pəhləvi dövründə siyasi vəziyyəti müfəssəl şərh edilmişdir.

Yazıçının şəxsi arxivində "İran mədəniyyəti" (3) adlı məqalə də saxlanılır. Eyniadlı məqalə 1941-ci ildə "Ədəbiyyat qəzeti"ndə (4) dərc edilmişdir. Dərc olunmuş məqalə ilə avtoqraf arasında nüsxə fərqləri vardır. Biz avtoqraf nüsxəni əsas götürmüşük. 10 vərəqdən ibarət əlyazma üzərində müəllif düzəlişlər etmiş, sözlər, cümlələr, bəzən isə tam bir abzas ixtisar edilmişdir. Fars dilində olan şeirlər və bəzi şəhər adları kiril əlifbası ilə yazılmışdır. Məqalədə Ordubadi İran xalqının mədəniyyəti ilə iftixar etmək səlahiyyətinə malik olduğunu, rəssamlıq və memarlığın tərəqqisinin I Dara və onun xələflərinin dövrünə aid edildiyini bildirir. "Qədim İran dininin incəsənət işlərinə mane olduğuna baxmayaraq Dara və onun xələfləri hazırda bütün dünya ziyarətçilərinin heyrətinə səbəb ola biləcək möhtəşəm saraylar yaratmış və onda incəsənətin ən yüksək nümunələrini mərkəzləşdirə bilmişdi." (3, s.1).

"İranın qədim və tazə tarixindən" (5) adlı məqalə 15 vərəq həcmindədir . Bu məqalədə İranın qədim dövrlərdən başlayaraq XX yüzilin əvvəllərinə qədərki hökumət quruluşundan bəhs edilir. Ordubadiyə görə, İran tarixi I Dara dövründən başlayır. Onun qədim tarixi haqqında məlumat Herodotun yazdıqlarından alınmışdır. Lakin Herodotun İran haqqında verdiyi məlumatın içərisində həqiqət çox azdır. Bunların əksəriyyəti xəyalətinin məhsulu olan hekayə və əfsanələrdən ibarətdir.

Ordubadi İranda yaşayan tayfaların mədəniyyətcə geridə qaldığı dövrdə iranlılar ilə midiyalıların Babil və Assur mədəniyyətinin təsiri ilə çox irəlidə olduğunu qeyd edir və eyni zamanda bildirir ki, "xüsusən, İran ərazisinin ətrafı uca dağlarla əhatə olunduğundan onlara yaxın olan qomşular özlərilə çox çətinliklə əlaqəyə girə bilmişlər. Buna görə də bir çox zamanlar mədəni səviyyənin aşağı təbəqəsində yaşamışlar. Lakin şimal-qərbdə yaşayan midiyalılar yerlərinin yüksəkliyi və şimal xalqları ilə əlaqədə olduqları səbəbinə mədəniyyət və iqtisadca çox iləri gedə bilmişlərdi." (5, s.2).

Çağdaş dövrdə qədim İran tarixini araşdıran müəlliflər əsasən Herodotun məlumatlarına əsaslanmışlar. Məsələn, onların fikrincə, "I Dara özünü ari nəslinə şamil edirdi. Herodotun məlumatına görə isə qədimdə midiyalılar da ari adlanırmış, lakin sonralar onlar "Midiya" (əfsanəvi Medeyanın adından) adını qəbul ediblər. Midiyanın qədim əhalisi yerli, qeyri-İran dillərində danışırdı." (6, s.339).

14 vərəqdən ibarət "İranda inqilab" (7) məqaləsində XIX yüzilin sonu - XX yüzilin əvvəllərində İranda baş verən olaylar canlandırılmışdır. Əlyazmanın vərəqləri nömrələnmişdir. Lakin vərəq 9-dan sonra vərəq 11 yazılmışdır. Bununla belə, məqalədə natamamlıq yoxdur. Məzmun uyğundur. Ordubadi məqalə üzərində işləyərək cüzi dəyişikliklər etmişdir.

İran inqilabının hər iki dövrünün işıqlandırıldığı məqalədə Şeyx Cəmaləddinin idarə etdiyi, 1889-cu ildə təşkil edilmiş siyasi cəmiyyət, cəmiyyət üzvləri Şeyx Əhməd Ruhi, Mirzə Ağa xan Kirmani, Mirzə Həsən xan və başqalarının fəaliyyəti, Təbriz üsyanı şərh edilir. Təbriz üsyanı haqqında Ordubadi daha geniş məlumat verir. Çünki müəllifin xatirələrində yazdığı kimi Təbriz inqilabı, demək olar ki, tamamilə gözünün qabağında gedirdi. (8, s.34).

"Bugünkü İran" (9) məqaləsində Rza şah Pəhləvi dövründə İranın siyasi və iqtisadi vəziyyətindən bəhs edilir. Bu dövrdə, xüsusən, Cənubi Azərbaycan şəhərlərində vəziyyət daha acınacaqlı idi. Ordubadi yazır: "Məktəblər yoxdur, məktəblər kifayət qədərində olsa belə, məktəb yaşına çatmış uşaqların hamısı bir qarın çörəyi üçün xalça fabrikalarına girməyə məcburdur. Xalça fabrikalarında çalışan azyaşlı fəhlələr üçün şəxsi müqavilələr mövcuddur.

Ehtiyac qarşısında qalan ailələr səkkiz yaşında uşaqlarını beş il müddətinə müəyyən para müqabilində müqavilə bağlayıb fabrika sahibinə satır. 1915-ci illərə qədər beşillik müqavilələrlə fabrikaya verilən uşaqların sahibi bütün beş il müddətində əlli tüməndən başlayıb yüz tümənə qədər mükafat alırdılar." (9, s.4).

Rza şah Pəhləvi hökumətini nəzərdə tutaraq "XX əsrin mədəni şəraitləri altında bir fars dövləti təşkil edən zatdan böyük ümidlər" gözlənildiyini qeyd edən Ordubadi "ümidlərin xaricində olaraq əlahəzrət Pəhləvi fars xalqının ağalığını İranda yaşayan başqa xalqların məhvi üzərində qurmağa" (9, s.5) başladığını göstərir.

Məmməd Səid Ordubadi 14 əsr əvvəl İrana girən ərəblərin, sonra monqolların, Teymurun, Teymurdan sonra İranı beş əsr idarə edən Səfəvilərin, Qacarların, sonralar nadirlərin, türkmanların fars dilinə, İran ədəbiyyatına hörmət bəslədikləri halda, XX əsrin mədəni şəraiti altında təşkil edilən Pəhləvi xanədanının "İranda yaşayan xalqların milli mədəniyyət və təyini-müqəddərat məsələlərinə az da olsa diqqət" (1, s.51) vermədiyini göstərir.

"İran tarixi və fars dili haqqında" (10) məqalənin də başlığı olmadığı üçün ad şərti verilmişdir. 6 vərəqdən ibarət olan bu məqalədə İran tarixinə qısa ekskurs edilir, yunanların İrana hökmranlığı dövründə fars dilinin məhv olmasından, Samani hökmdarlarının tarixindən, Buxara tarixindən bəhs edilir. Ordubadi Rudəkinin türk olub sadə fars dilində yazdığını göstərərək qeyd edir ki, "Rudəki buxaralı bir türk olmayıb, İrandan gəlmə bir fars ədibi olsaydı, o dəxi özündən yüz il, iki yüz il sonra gəlmiş İran ədibləri kimi yenə də Bəhram Gur dövrünün yadigarı olan fars dili mühitindən çıxamıyacaq idi." (10, s.5).

"İngiltərə imperializmi Şərq xalqlarının düşməni rolunda" (11) adlı 14 vərəq həcmində məqalədə müəllif İngiltərənin İranda və İran körfəzi ətrafındakı başladığı siyasi intriqanı davam etdirdiyini bildirir. Ordubadi siyasi hadisələri şərh edərkən xaricdə: Belçikada, İngiltərədə dərc olunan qəzetlərə əsaslanır, qəzetlərdən nümunələr gətirir. Müəllif sonda ingilis imperialistlərini Şərq xalqlarının düşməni kimi üç cəhətdən xarakterizə edir və bununla da siyasi hadisələrdə öz nöqteyi-nəzərini ümumiləşdirir.

## Nəticə

*Məmməd Səid Ordubadinin haqqında qisaca məlumat verdiyimiz, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində saxlanılan, İran tarixi haqqında məqalələrinin hər biri ayrı-ayrılıqda dəyərli nümunələrdir. Fikrimizcə, bu nümunələrdən tarixçi alimlər məxəz kimi yararlana bilərlər.*

## Ədəbiyyat siyahısı:


1. Ordubadi M.S. İran tarixinə aid oçerklər. AMEA ƏYİ, f.14, sax.vah.382.
2. Ordubadi M.S. İran Pəhləvi dövründə. AMEA ƏYİ, f.14, sax.vah.400.
3. Ordubadi M.S. İran mədəniyyəti. AMEA ƏYİ, f.14, sax.vah.402.
4. Ordubadi M.S. İran mədəniyyəti. Ədəbiyyat qəzeti. 1941-ci il, 10 oktyabr.
5. Ordubadi M.S. İranın qədim və tazə tarixindən. AMEA ƏYİ, f.14, sax.vah.403.
6. Yusifov Y. Qədim Şərq tarixi. Bakı: "Şərq-Qərb", 2007.
7. Ordubadi M.S. İranda inqilab. AMEA ƏYİ, f.14, sax.vah.401.
8. Ordubadi M.S. Həyatım və mühitim. Bakı: Azərnəşr, 1996.
9. Ordubadi M.S. Bugünkü İran. AMEA ƏYİ, f.14, sax.vah.390.
10. Ordubadi M.S. İran tarixi və fars dili haqqında. AMEA ƏYİ, f.14, sax.vah.436.
11. Ordubadi M.S. İngiltərə imperializmi Şərq xalqlarının düşməni rolunda. AMEA ƏYİ, f.14, sax.vah.398.

**Naila Samadova**

**Mammad Said Ordubadi's articles about the history of Iran**

The rich personal archive of the 20th century's outstanding Azerbaijani litterateur Mammad Said Ordubadi is kept at the Azerbaijan National Academy of Sciences - Institute of Manuscripts named after Muhammad Fuzuli. Certain parts of the archive are consist of articles written by the author about the history of Iran. "Bibliographical articles on history of Iran", "Iran in the Pavlavi period", "Culture of Iran", "Ancient and new history of Iran", "Revolution in Iran", "Today's Iran", "About Persian history and Persian language", "British imperialism in the role of an enemy of the Eastern nations" are autobiographies written in the Arabic alphabet. The articles describe the history, political and economic status, the structure of government, and the culture of Iran from ancient times to the early twentieth century.

From our perspective, Mammad Said Ordubadi's articles on the history of Iran can be beneficial for historians as a source.

***Key words:*** *Ordubadi, Iran, Pahlavi, history, revolution*

**Наиля Самедова**

**Статьи Мамед Саида Ордубади по истории Ирана**

В Институте Рукописей имени Мухаммеда Физули НАНА храниться личный архив выдающегося представителя азербайджанской литературы XX века Мамед Саида Ордубади. Определённую часть архива писателя составляет статьи по истории Ирана. Статьи под названием «Очерки по истории Ирана», «Иран во времена Пехлеви», «Культура Ирана», «О древней и новой истории Ирана», «Революция в Иране», «Сегодняшний Иран», «О персидском языке и истории Ирана», «Английский империализм в роле врага народов Востока» являются авторскими экземплярами, которые написаны арабским алфавитом.

В статьях излагается история Ирана начиная с древних времён до начала XX столетия – политическое и экономическое положение, государственный строй и культура.

По нашему мнению, статьи Мамед Саида Ордубади по истории Ирана могут быть использованы учёными историками как научный первоисточник.

***Ключевые слова:*** *Ордубади, Иран, Пехлеви, история, революция*

Redaksiyaya daxil olma tarixi: 15.08.2019
Çapa qəbul olunma tarixi: 24.09.2019

Filologiya üzrə elmlər doktoru
**Raqub Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.